TƏLƏBƏ BİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ İZLƏNMƏSİ
LAZIM OLAN QAYDALAR

1. Cari və ya növbəti tədris ili üçün dərs yükləri müəyyən olunduqdan sonra TQŞ tərəfindən dekanlıq və kafedralara müvafiq fənlərin qiymətləndirmə formalarının müəyyən olunması ilə bağlı təkliflər hazırlanması tapşırılır.

2. Eyni fənni tədris edən müəllimlərdən ibarət müvafiq işçi qrupu (və ya fənn komisiyası) imtahanın keçirilməforması (bundan sonra "qiymətləndirmə forması") barəsində təkliflərini kafedra müdirinə verir.

Qeyd: 1. Müvafiq qiymətləndirmə formasının seçilməsi ilə bağlı qısa əsaslandırma olmalıdır.

1. Bir fənnin bir neçə fərqli fakültə, ixtisasda, dildə fərqli müəllimlər tərəfindən tədris olunmasına baxmayaraq eyni formada qiymətləndirməsinin təşkili məqsədə uyğundur. Bu səbəblə eyni fənni fərqli qruplarda, fərqli dildə tədris edən müəllimlər fənnin imtahanının keçirilmə forması ilə əlaqədar ümumi razılığa gəlib, bunu müvafiq kafedraya bildirməlidirlər.

2. Müvafiq kafedra müdiri kafedraya aid fənlərin qiymətləndirmə formaları ilə bağlı təklifləri müəllimlərdən (fənn sillabuslarından) toplayır və bu barədə müvafiq xidməti məlumatı fakültə dekanlığına və Təhsildə Qiymətləndirmə şöbəsinə (bundan sonra "TQŞ") təqdim edir.

Qeyd: 1. Qiymətləndirmə forması əks olunmuş sillabus elektron universitet sistemində (eduman) tədris yarımilibaşlanmadan yerləşdirilməlidir.

3. TQŞ qiymətləndirmə formalarını ümumiləşdirərək Tədris işləri üzrə prorektora məlumat verir.

Qeyd: Kafedranın təklifi və TQŞ-nin qərarı əsasında istisna hallarda müəyyən fənlər üzrə fərqli qiymətləndirməformaları tətbiq oluna bilər.

4. Qiymətləndirmə formaları ilə əlaqədar imtahan suallarının (variantlarının) tərtib olunması və nəticələrin qiymətləndirilməsi qaydası barəsində müəllimlər üçün KTŞ/TQŞ tərəfindən təlim təşkil olunur, yazılı təlimat təqdim olunur.

Qeyd: Qiymətləndirmənin məntiqi, metodikası və sualların tərtibi qaydaları müəllimlərə izah olunur.

5.1. Yazılı qiymətləndirmə forması üçün təlimat:

- Hər həftə keçilən dərs üçün (bir və daha artıq mövzu ola bilər) 3 sual fənn müəllimi tərəfindən müəyyənləşdirilir.
- 3 sual hər həftə tədris olunan dərslərə aid 1-i asan, 1-i orta, 1-i çətin olmaqla hazırlanır.
- Suallar Bloom taksanomiyasına uyğun olaraq hazırlanır (asan suallar yadda saxlama və anlama bacarığını ölçməli, orta çətinlikdə olan suallar tətbiq və təhlil etmə bacarığını ölçməli, çətin suallar isə qiymətləndirmə və yaratma bacarığını ölçməlidir).
- Ümumilikdə 15 həftə (yekun imtahan) üçün 15x3=45 sual hazırlanır. Əgər fənn üçün əvvəlki illərdə bənzər şəkildə sualların tərtibi həyata keçirilibsə, o zaman cari tədris ilində 30 sual (10 asan, 10 orta, 10 çətin) tərtib olunur.
- Aralıq qiymətləndirmə 8-ci tədris həftəsində təşkil olunacağı üçün 7 həftəni əhatə edən mövzulardan suallar hazırlanır: 7x3=21 sual hazırlanır.
- Yekun imtahan və aralıq qiymətləndirmə kağızları variantlı (əsasən 4 variantda hazırlanacaq və gizli variant da ola bilər) olaraq hazırlanacaq.
- Aralıq qiymətləndirmədə 21 sual içindən, hər biri ayrı mövzudan olmaqla 1-i asan, 1-i orta, 1-i çətin 3 sualseçilib, hazırlanacaq variantlı imtahan kağızlarına qeyd olunacaq.
- Yekun imtahanda 45 sual içindən, hər biri ayrı mövzudan olmaqla 2-i asan, 2-i orta, 1-i çətin 5 sual seçilib, hazırlanacaq variantlı imtahan kağızlarına qeyd olunacaq.
- Hər sualın qiymətləndirilməsi 0-10 bal arasında olmaqla fənn müəllimi tərəfindən aparılacaqdır.

5.2. Test qiymətləndirmə forması üçün təlimat:

- Hər həftə keçilən dərs üçün (bir və daha artıq mövzu ola bilər) 10 test sual fənn müəllimi tərəfindən müəyyənləşdirilir
- 10 test sual hər həftə tədris olunan dərslərə aid 3-ü asan, 4-ü orta, 3-ü çətin olmaqla hazırlanır.
- Test sualları Bloom taksanomiyasına uyğun olaraq hazırlanmağa çalışılır (asan suallar yadda saxlama və anlama bacarığını ölçməli, orta çətinlikdə olan suallar tətbiq və təhlil etmə bacarığını ölçməli, çətin suallar isə qiymətləndirmə və yaratma bacarığını ölçməlidir).
- Ümumilikdə 15 həftə (yekun imtahan) üçün 15x10=150 test sualı hazırlanır. Əgər fənn üçün əvvəlki illərdə bənzər şəkildə sualların tərtibi həyata keçirilibsə, o zaman cari tədris ilində 90 test sualı (30 asan, 30 orta, 30 çətin) tərtib olunur.
- Aralıq qiymətləndirmə 8-ci tədris həftəsində təşkil olunacağı üçün 7 həftəni əhatə edən mövzulardantestlər hazırlanır: 7x10=70 test sualı hazırlanır.
- Yekun imtahan və aralıq qiymətləndirmə kağızları variantlı (əsasən 4 variantda hazırlanacaq və gizli variant da ola bilər) olaraq hazırlanacaq.
- Aralıq qiymətləndirmədə 70 sual içindən seçim edilərək (seçim edilərkən hər həftə tədris edilən mövzulardan 1 çətin, 1 orta və 1 asan sual salınmasına diqqət ediləcək) 30 suallıq test kağızları hazırlanacaq.
- Yekun imtahanda 150 sual içindən seçim edilərək (seçim edilərkən hər həftə tədris edilən mövzulardan 1 çətin, 1 orta və 1 asan sual salınmasına diqqət ediləcək) 50 suallıq test kağızları hazırlanacaq.
- Hər bir test sualının doğru cavablandırılması 1 bal olaraq qiymətləndiriləcək.

5.3. Şifahi qiymətləndirmə forması üçün təlimat

- Fənn müəllimi fənnin kredit və saat miqdarına uyğun olaraq sual hazırlayır: (fənn saatı) x 1,5=sual sayı

- Şifahi suallar Bloom taksanomiyasına uyğun olaraq hazırlanmağa çalışılır (asan suallar yadda saxlama və anlama bacarığını ölçməli, orta çətinlikdə olan suallar tətbiq və təhlil etmə bacarığını ölçməli, çətin suallar isə qiymətləndirmə və yaratma bacarığını ölçməlidir).
- Hazırlanan suallar tələbə sayına uyğun olaraq bilet formasında tərtib olunur.
- Aralıq qiymətləndirmə üçün hazırlanan biletlər 3 sualdan ibarət olur.
- Yekun imtahan üçün hazırlanan biletlər 5 sualdan ibarət olur.
- Hər sualın qiymətləndirilməsi 0-10 bal arasında olmaqla fənn müəllimi tərəfindən aparılacaqdır.
- *Bu qiymətləndirmə formasının sadəcə xüsusi şifahi izahat tələb edən fənlər üçün istifadəsi məqsədəuyğundur.*

5.4. Təqdimat (Layihə)qiymətləndirmə forması üçün təlimat

- Bu qiymətləndirmə forması layihə, model, plan, təklif hazırlanması lazım olan fənlər üçün tətbiq olunur.
- Fənn müəllimi fənnin mənimsəmə nəticələrinə uyğun olaraq təqdimat (proyekt) mövzuları müəyyənləşdirir.
- Bu fənlərdə aralıq qiymətləndirməyə qədər daha çox layihəni hazırlamağa köməkçi olacaq bilik vəbacarıqlar öyrədilməlidir. Bu səbəblə aralıq qiymətləndirmə təqdimat formasında *ola bilməz.*
- Təqdimat mövzuları tələbələrə aralıq qiymətləndirmədən sonra təqdim olunur.
- Hazırlanan layihə sonda word və təqdimat formasında Yekun imtahanda təqdim olunur.
- Təqdimat qiymətləndirmə formasında bal bölgüsü bu şəkildə olur:
- Layihənin tələb olunan qaydalara uyğun word-də hazırlanması – 10 bal,
- təqdimatın dizaynı, hazırlanması -10 bal,
- Təqdimat və word-də mövzunun əhatə olunması, yeni təkliflər -30 bal.
- Tələbələrin təqdim etdiyi işlər 1 il keçənə qədər elektron formada

dekanlıqda arxivlənir.

5.5. Nümunə iş (case) qiymətləndirmə forması üçün təlimat

- Fənn müəllimi fənnin mənimsəmə nəticələrinə uyğun olaraq nümunə işlər (case) hazırlayır.
- Nümunə iş (case) hazırlanarkən mövzuda əsas xırdalıqların yaxşı müəyyənləşdirilmiş olması lazımdır.
- Nümunə iş (case) tələbələrin diqqətini real bir vəziyyətə çəkməlidir.
- Fənn müəllimi semestr üçün 10 nümunə iş hazırlamalıdır.
- Aralıq qiymətləndirmə 8-ci tədris həftəsində təşkil olunacağı üçün 7 həftəni əhatə edən mövzulardan nümunə işlər (case) hazırlanır. *Əgər fənn üzrə tədris olunan ilk 7 mövzu nümunə işlərin (case)hazırlanması üçün yetərli deyilsə, bu zaman aralıq qiymətləndirmə fərqli formada təşkil oluna bilər.*
- Yekun imtahan və aralıq qiymətləndirmə kağızları variantlı (əsasən 4 variantda hazırlanacaq və gizli variant da ola bilər) olaraq hazırlanacaq.
- Aralıq qiymətləndirmədə hər variantda fərqli nümunə işlər (case) olsa da, nümunə işlərlə (case) bağlı soruşulan 3 sual variantlarda eyni olacaq.
- Yekun imtahanda variantlı imtahan kağızlarının hər birində nümunə işlərlə (case) bağlı 5 sual qeydolunacaq.
- Hər sualın qiymətləndirilməsi 0-10 bal arasında olmaqla fənn müəllimi tərəfindən aparılacaqdır.

5.6. ***Tədqiqat qiymətləndirmə forması*** **(magistratura səviyyəsində)**

- Bu qiymətləndirmə forması maqistratura səviyyəsində (istisna hallarda bakalavr, “Tədqiqat yöntəmləri”kimi dərslərdə) tətbiq olunur.
- Tədris yarımilinin əvvəlində fənn müəllimi tədris etdiyi fənnin mövzularına uyğun olaraq tələbələrətədqiqat mövzuları verir.
- Tələbələr verilən mövzularda elmi jurnalların tələblərinə uyğun olaraq məqalə formatında və ya tezis formasında tədqiqat işlərini hazırlamalıdırlar.
- Aralıq qiymətləndirmə zamanı maqistr tədqiqatın gedişi ilə bağlı

təqdimat hazırlamalı, abstrakt, giriş, metodla bağlı araşdırmalarını təqdim etməlidir.

- Yekun imtahanda tələbə tədqiqat çalışmasını məqalə formatında və ya tezis formasında yazılı olaraq təqdim edib, təqdimat hazırlayaraq çıxış etməlidir. Tələbə cari semestr dövründə hər hansı bir jurnalda verilən mövzuda məqaləsini dərc etdirsə və ya konfransda çıxış edib, materialı təqdim etsə, o sözügedən fənn üzrə yekun imtahandan müəllimin rəyinə əsasən azad ola bilər.
- *Maqistratura ixtisaslarında dil və bəzi hümanitar (köməkçi) fənlərin qiymətləndirilməsi qeyd edilən digər formalara uyğun olaraq təşkil edilə bilər. Maqistratura ixtisaslarında dil fənlərinin qiymətləndirilməsi akademik xarici dil biliyi bacarığını ölçə biləcək şəkildə təşkil olunmalıdır (akademik yazı, danışıq, dinləmə,oxuma bacarıqları inkişaf etdirilməlidir).*

5.7. Qarışıq qiymətləndirmə forması üçün təlimat

- Bu qiymətləndirmə forması yuxarıda göstərilən bir neçə formanın birgə tətbiqi ilə mümkün olur.
- Yazılı + Test ; Yazılı + Nümunə iş (case) ; Test + Nümunə iş (case) və ya Yazılı + Test + Nümunə iş (case)formalarında ola bilər.
- Neçə formadan istifadə edilirsə həmin formanın təlimatında göstərilən sual sayının bir o qədər azaldılaraq hazırlanması yetərli olacaqdır. *Məsələn:Əgər yazılı+test formasından istifadə ediriksə, o zaman ən azı ümumilikdə75 test,23yazılı sual hazarlanmalıdır.*

5.8. Dil fənlərinin qiymətləndirilməsi

- Dil fənlərinin qiymətləndirilməsi 3 modula bölünür: ***Oxuma, Yazma, Dinləmə, Danışma.***
- İmtahanın keçirilmə forması beynəlxalq dil sertifikatlarının qiymətləndirməsinə uyğun olaraq təşkil olunacaqdır.
- Bu forma daxilində tələbələrə mətnlər dinlədiləcək, onlarla dialoqlar qurulacaq, hər hansı mövzuda yazılı və ya sözlü fikir bildirmələri istənəcək, mətndə boşluq doldurulacaq, mətnlə bağlı doğru-yanlış, uyğunlaşdırma,

fikir doğruluğunun, yazı qaydalarına uyğunluğun yoxlaması həyata keçməyəcək.

- Aralıq qiymətləndirmə sadəcə ***Oxuma (10 bal), Yazma (10 bal), Dinləmə (10 bal)*** bölmələri üzrə keçirilir.
- Yekun imtahan ***Oxuma (10 bal), Yazma (10 bal), Dinləmə (10 bal) və Danışma (20 bal)*** bölmələri üzrə keçirilir
- Yekun imtahan və aralıq qiymətləndirmə kağızları variantlı (danışma bölməsi tələbə sayına uyğun) olaraq hazırlanacaq.

6. Müəllim heyəti ümumi imtahan sual siyahısını müvafiq təlimata əsasən hazırlayıb kafedra müdiri və fənn komissiyalarının təsdiqinə təqdim edir. Kafedra müdiri və fənn komissiyalarının nümayəndələri imtahan suallarının təlimata əsasən məzmun və forma uyğunluğunu təmin edərək TQŞ-yə təqdim edir (eyni fənn üzrə imtahan sualları müəllimdən asılı olaraq fərqli tərtib oluna bilməz.

7. Müəllim heyəti imtahan suallarını müvafiq təlimata əsasən və imtahan variantları formasında tərtib edib müvafiqkafedra müdirinə təqdim edir. Kafedra imtahan variantlarınının təlimata uyğunluğunu təmin edərək TQŞ-yə təqdim edir.

8. TQŞ imtahan variantlarının strukturu ilə əlaqədar problem olarsa, düzəliş üçün müvafiq kafedra müdirinə geri göndərir. Əks halda, təqdim olunmuş imtahan variantları içərisindən təsadüfi seçilmiş variantlar imtahanda istifadə olunmaları üçün tələbə sayına uyğun olaraq Kafedrayla birgə hazırlanır, müvafiq zərflərə qoyularaq möhürlənib Dekanlığa təhvil verilməsini təmin edir.

Qeyd 1: Müvafiq variantlar üzrə imtahan sualları imtahan vərəqlərinin üzərində çapla yazılır.

Qeyd 2: Möhürlənmiş zərflər bu məqsədlə ayrılmış seyfdə saxlanılır.

9. İmtahan nəzarətçiləri olaraq fakültəyə bağlı kafedranın ştat və yarımştat müəllimləri cəlb edilir. Ştat müəllimləri 8-10, yarımştat müəllimlər isə 4-5 imtahanda müəllimlərin imtahan yükü çərçivəsində nəzarətçilik fəaliyyətini həyata keçirir. Saat hesabı formada müəllim olaraq çalışan şəxslər imtahan

nəzarətinə cəlb olunmur. Nəzarətçilik fəaliyyəti ilə əlaqədar nəzarətçi müəllimlər TQŞ/KTŞ tərəfindən təlimatlandırılır. Müəllimlərdən savayı imtahan otaqlarında müvafiq dekanlıq və şöbə işçilərindən məsul şəxslər təyin olunur.

10. İmtahana buraxılan tələbələr barəsində təqdimatın nüsxəsi müvafiq fakültə dekanlıqları tərəfindən hazırlanaraqTQŞ-nin müdirinə təqdim olunur.
11. İmtahanlar təşkil olunarkən tələbələrin yoxlanılaraq imtahan zalına buraxılması işinə müvafiq fakültə dekanlığının əməkdaşları nəzarət edir.
12. İmtahan zalı daxilində fəaliyyətləri TQŞ əməkdaşları koordinasiya edir, o cümlədən imtahan məsul şəxsləri vənəzarətçilərlə birgə:
    - Masaların düzülüşü işinə ümumi rəhbərliyi həyata keçirir,
    - Tələbələrin yerləşdirilməsi məsələsini təşkil edir,
    - İmtahan variantlarını tələbələr arasında paylaylanılmasına nəzarət edir.

13. İmtahan vərəqləri nəzarətçilər tərəfindən toplanıb, kodlaşdırılmasına TQŞ əməkdaşları nəzarət edir. 14.TQŞ imtahan vərəqlərinin imtahan günü və ya əvvəlcədən müəyyən olunmuş digər gün yoxlanılması üçünmüvafiq müəllimlərə təhvil verilməsi, alınmasına nəzarət edir.

14. TQŞ imtahan vərəqlərinin imtahan günü və ya əvvəlcədən müəyyən olunmuş digər gün yoxlanılması üçünmüvafiq müəllimlərə təhvil verilməsi, alınmasına nəzarət edir.

15. Qiymətləndirmə vərəqlərinin müvafiq fakültə dekanlığı əməkdaşları tərəfindən elektronik olaraq tərtibi vətəmini həyata keçirilir.

16. TQŞ əməkdaşı yoxlanılmış imtahan vərəqlərinin kodunun açılmasına və imtahan qiymətlərinin fənn müəllimi tərəfindən dekanlıq əməkdaşına yazılı olaraq bildirməsinə, dekanlıq əməkdaşının elektron olaraq qiymətləndirməvərəqinə qiymətləri daxil etməsinə nəzarət edir.

Qeyd 1: Əməkdaşların vaxtına qənaət etmək üçün kodlaşdırma prosesinin sadələşdirilməsi nəzərdə tutulur.

Qeyd 2: Doldurulmuş qiymətləndirmə vərəqləri yekunda çap olunur və TQŞ tərəfindən də ştamplanaraqtəsdiqlənir.

17. Qiymətlər müvafiq fakültə dekanlıqları tərəfindən edumana yüklənərək

tələbələrə bildirilir.

18. Apellyasiya üçün fakültə dekanlığına müraciət edən tələbələrin müraciətlərinə Apellyasiya Komissiyası tərəfindən baxılır.